# Məqsəd müştəri məmnunluğunu təmin etməkdir

*Bu gün Azərbaycan iqtisadiyyatı öz inkişaf tempinə görə dünyada lider mövqedə dayanır. Ölkə iqtisadiyyatının sürətli yüksəlişini təmin edən əsas amillərdən biri respublikamızda məhz güclü sahibkarlar sinfinin formalaşmasıdır. Sahibkarlığın inkişafı ölkədəki davamlı sabitliyə və tərəqqiyə təkan verir. Ölkəmizdə sahibkarlığın inkişafı, iş adamlarının fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Dövlətimiz tərəfindən bu sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, özəl sektorda fəaliyyət göstərən müəssisə və şirkətlər öz işlərini müasir tələblər səviyyəsində qurmuş, əhaliyə keyfiyyətli xidmət göstərirlər. Belə şirkətlərdən biri də son illər özəl sektor bazarında öz layiqli yer tutmuş "Smart Home Baku" MMC-dir.* ***Şirkətin kommersiya direktoru Kamran Bəkirovla*** *görüşüb şirkətin fəaliyyət istiqaməti, görülən işlər, əldə olunan uğurlar barədə məlumat verməsini xahiş etdik. O, bizimlə söhbətində bu barədə ətraflı məlumat verdi.*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı həyatın bütün sahələrində fundamental dəyişikliklərin əsasını qoydu.

Bazar iqtisadiyyatına keçidin, yeni mülkiyyətin formalaşması prosesinin diktə etdiyi ən başlıca şərtin məhz özəl sektorun fəaliyyəti üçün dövlət səviyyəsində maksimum imkanların yaradılmasından, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılmasından ibarətdir.

"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Ulu öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına güclü təkan verdi. Qəbul olunmuş Dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Ümumi sosial-iqtisadi tərəqqi prosesində sahibkarlıq potensialının uğurla realizasiyası üçün atılan növbəti vacib addımlardan biri 1993-1995-ci illəri və 1997-2000-ci illəri əhatə edən iki dövlət proqramı olmuşdur. Həmin proqramlar sahibkarlığın inkişafını, dövlət tərəfindən özəl sektor subyektlərinə hərtərəfli dəstəyin göstərilməsini özündə ehtiva etmişdir.

Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən hər il aprelin 25-i Azərbaycanda Sahibkarlar Günü kimi qeyd edilir.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ötən 15 ildə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Ötən illərdə keçid dövrünü geridə qoyan respublikanın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar hüquqi-siyasi istiqamətdə də həyata keçirilməklə həm də sahibkarlığın inkişafına güclü təkan verir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın çoxşaxəli və hərtərəfli inkişafına, milli maraqların maksimum dərəcədə qorunmasına xidmət edir. Azərbaycanın konseptual sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən müxtəlif sahə və istiqamətləri əhatə edən dövlət proqramları, köklü islahatlar və irimiqyaslı infrastruktur layihələri nəinki bu gün üçün, eləcə də gələcək dövr üçün möhkəm təməlin yaradılmasına, ölkəmizin qüdrətinin artmasına, xalqın həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına yönəldilmişdir. Son illər əhalinin etibarlı sosial müdafiəsinin, habelə vətəndaşların yüksək rifah halının təmini istiqamətində həyata keçirilən ardıcıl tədbirlər respublikamızın milli inkişaf modelinin sosialyönümlü olduğunu bir daha təsdiqləyir.

Ölkə iqtisadiyyatının sürətli inkişaf dinamikası və çoxşaxəliliyi uğurlarımızı şərtləndirən vacib amillərdəndir. Ölkə rəhbərinin xüsusi qeyd etdiyi kimi, bu istiqamətdə ən önəmlisi ondan ibarətdir ki, məhz qeyri-neft sektoru artan templərlə inkişafdadır və bu da yürüdülən siyasətin nəticəsidir. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması məqsədilə reallaşdırılan islahatlar ölkəmizin neftdən asılılığını azaltmaqla yanaşı, yoxsulluq səviyyəsinin minimuma enməsinə, əməkqabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə imkan vermişdir.

Ölkə başçısının vurğuladığı kimi, Azərbaycanda bu gün özəl sektorda fəaliyyət göstərən şirkətlər güclənir, dövlət də onlara öz dəstəyini göstərir. İş adamları, sahibkarlar, onların öhdəsinə düşən bütün funksiyaları yerinə yetirməkdə Azərbaycan dövlətinin dəstəyinə arxalanırlar.

Dövlət başçısı cənab İlham Əliyev iş adamlarına müraciətlə demişdir: "İş adamları, dövlətin bütün yerli icra orqanları—hamımız birgə işləməliyik. Əlbəttə ki, təbiidir ki, bütün ölkələrdə belədir, iş adamları öz bizneslərini haqqında düşünməli, biznesi inkişaf etdirməlidirlər. Eyni zamanda, imkan olanda çətin vəziyyətdə yaşayanlara da əl uzatmalıdırlar. Mən belə biznesi, iş adamlarını təqdir edirəm və sizi də bu işlərə çağırıram. Sizə deyə bilərəm ki, mən bundan sonra da ölkədə biznesin inkişafı üçün əlimdən gələni edəcək və bütün lazımi tədbirləri görəcəyəm".

Bütün bunlar Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasında sahibkarlığın rol və yerinin nə qədər uzaqgörənliklə və düzgün şəkildə müəyyən olunduğunu qabarıq şəkildə nümayiş etdirir. Dövlət tərəfindən sahibkarlığın inkişafına yaradılan şərait və verilən güclü dəstək, eyni zamanda, həyata keçirilən dərin islahatlar bundan sonra da sahibkarlıq təsərrüfatlarının ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynamasına möhkəm bazis yaradıb. Bu baxımdan, ölkə sahibkarlarının da üzərinə böyük vəzifə və məsuliyyət düşür. Dövlət isə öz diqqət və qayğısını əsirgəmir, iş adamları və sahibkarlara lazımi vəsait və güzəştli kreditlər verir. Artıq bu işlər görülür. Təbii ki, sahibkarların öz maliyyə vəsaitləri, özəl bankların imkanlarının genişlənməsi və digər amillər də Azərbaycan iqtisadiyyatının inkişafına çox müsbət təsir göstərəcəkdir. Əlbəttə ki, bu gün bunlar ölkədə sahibkarlıq və investisiya mühitinin tənzimlənməsinə, bu sahənin inkişafına təkan verərək, həm də hüquqi bazasının güclənməsinə kömək edir, əhəmiyyətli keyfiyyət dəyişikliklərinə stimul yaradır.

Sahibkarlığın inkişafı ölkədəki davamlı sabitliyə, tərəqqi və demokratikləşmə prosesinin ildənilə daha da güclənməsinə və möhkəmlənməsinə öz layiqli töhfəsini verir, Azərbaycanın hərtərəfli inkişafının qarantına çevrilir. Halal yolla maddi imkanlarını artıran hər bir insan üçün maneəsiz və sərhədsiz biznes mühiti yaradılır, özəl sektorun imkanları genişləndirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 3 mart 2014-cü il tarixdə "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzalamışdır. Fərman sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının, bu sahənin inkişafına verilən böyük önəmin, özəl bölməyə dövlət dəstəyi tədbirlərinin ardıcıllığının göstəricisi, sahibkarlığın inkişafının yeni mərhələsinin hüquqi əsaslarını özündə əks etdirən mühüm konseptual sənəddir. Sənəddə aidiyyəti üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin "bir pəncərə" prinsipinə uyğun olaraq elektron qeydiyyatı, eləcə də tikintiyə icazələrin verilməsi sahəsində prosedur və müddətlərin azaldılması, kreditlərin verilməsi prosesinə təsir göstərən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi üçün müvafiq təkliflərin hazırlanması tapşırılmışdır.

Özəl sektorun inkişafı istiqamətində atılan mühüm addımlardan biri bu sahədə hüquqi bazanın dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilməsi, ölkənin qəbul edilmiş yeni Konstitusiyasında bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa təminat verilməsi, rəqabət mexanizminin formalaşması və inkişafı, həmçinin rəqabətin qorunması ilə bağlı müddəaların əksini tapmasıdır.

Bütün bunlara paralel olaraq sözügedən sahəyə dövlət nəzarət sistemi təkmilləşdirilmiş, müvafiq qanunvericilik bazasında qabaqcıl dünya təcrübəsinə uyğun dəyişikliklər həyata keçrilmişdir.

Qeyd edim ki, Smart Home Baku MMC 30 mart 2015-ci il tarixində fəaliyyətə başlamışdır və Smart Home Baku MMC Rusiya Federasiyasının domofon avadanlıqları istehsalında Azərbaycanda rəsmi nümayəndəsidir. Fəaliyyəti dövrü ərzində müştərilərin məmnunluğunu qazanan şirkət Bakı şəhərinin bütün ərazi və ünvanlarında, əhalinin rahatlığının və təhlükəsizliyinin təmin olunması üçün uğurlu fəaliyyət göstərir. Şirkətin müştəri xidməti şöbəsinə daxil olan sifarişləri iki iş günü ərzində həll edir. Fəaliyyətə başladığı ilk gündən etibarən Smart Home MMC müştərilərin istək və arzularını nəzərə alaraq bütün yaşayış binalarına domofon avadanlığı quraşdırır. Fəaliyyətimizdə əsas məqsəd və məram müştəri məmnunluğunun tam təmin olunmasıdır.

Qeyd edim ki, müştəri xidməti şöbəmiz müraciət edən bütün abonentlərin təklif və şikayətlərinə də xüsusi diqqətlə yanaşır və şikayətləri qəbul edir. Vurğulayım ki, domofon çəkdirmək istəyən hər hansı bir şəxslə satış şöbəsinin işçiləri yerində görüşərək qiymətləndirmə aparır və hər bir müştərinin büdcəsi nəzərə alınaraq müxtəlif uyğun qiymətlər təklif edir. Şirkətimizin fəaliyyət dairəsini ildən-ilə daha da genişləndirməsi, uğurlarının xeyli dərəcədə artmasının əsas səbəbləri "Smart Home Baku" MMC müştərilərə keyfiyyətli avadanlıq, zəmanətli satış, professional və operativ servis, peşəkar mütəxəssis işi, büdcəyə uyğun qiymətlər, təhlükəsiz mənzil, qorunan ailə, sakitliyin və təmizliyin təminatıdır. Avadanlıqların hamısının texniki göstəriciləri ən müasir standartlara cavab verir. CYFRAL SSD-40/P bir koordinat xətt əlaqəsinə malik olub 40 abonentlik audio çağırış



bloku, informasiya lövhəsi, düyünlərin işıqlandırılması, daxili kontroller və EM-Marik formatlı, kontaktsız açarların oxuyucusu və s. texniki göstəricilərə malikdir. Bundan başqa, Cyfral SSD-20, Cyfral KU-95/P, Cyfral Kodsr-2, Cyfral KM-2 NO, Adartor ODS və digər avadanlıqlarda müştərilərə təklif olunur ki, bunların hamısı müasir texniki göstəricilərə cavab verir.

Texniki şöbənin peşəkar servisçiləri rüb ərzində bir domofon avadanlığına—qaytarıcı mexanizmin tənzimlənməsi, qapı petlələrinin yağlanması, çağırış blokunun düymələrinin yoxlanması, çıxış düyməsinin yoxlanması, zəng tonunun tənzimlənməsi, elektro maqnit kilidin yoxlanması və ümumiyyətlə, domofon avadanlığında yaranmış problemlərin aradan qaldırılması, o cümlədən açar sifarişi və s. işləri operativ, yüksək keyfiyyətlə yerinə yetirir. Məlumat üçün onu da qeyd edim ki, göstərilən servis haqqını şirkətin ofisində, E-manat və Milli ön də, www.millon.az saytında və digər xidmətləri seçdikdən sonra Domofon bölməsində abunəçinin şəxsi hesab nömrəsini daxil edib ödəniş etmək mümkündür.

Smart Home Baku MMC Rusiya Federasiyasında domofon istehsalı üzrə lider olan — Zavodunun sertifikatına malikdir. Vurğulayım ki, şirkətimizin Bakı şəhərinin bütün rayonları, o cümlədən Qaradağ, Xırdalan, Masazır, Xətai, Nəsimi və s. rayon və qəsəbələri ilə müqaviləmiz var. Şirkətimiz Bakı şəhərinin ən mərkəzi və dövlət əhəmiyyətli binalarına da domofon xidməti göstərmişdir. Bunlardan Ramiz Quliyev-2 R-də, Sərhəd Qoşunlarının binası, Milli Məclisin binası, Prezident Administrasiyasının yataqxanası və s. göstərmək olar.

Smart Home Baku MMC şirkətinin kollektivi bundan sonra da əhalinin təhlükəsizliyinin və rahatlığının təminatı naminə daha əzmlə çalışacaq, müştəri məmnunluğunu yüksək səviyyədə təmin edəcəkdir.

**Əli SADIQOV,**
**"Respublika".**

Özbəkistanın milli bayramı